BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# İSLAM HÜQUQUNUN QAYNAĞI KİMİ QUR'AN

*Mübariz Camalov**

Bilindiyi kimi Qur`an dinin vaz edəni olan Allah kəlamı olması səbəbi ilə müsəlmanların ən mühüm bilik qaynağı olmuşdur. Şübhəsiz elm və tarixlə əlaqəli bəzi məlumatları əhatə etməsi ilə bərabər Qur`anın təməl məqsədi, funksiyası dindir. Yəni Qur'an İslam dininə qanunqoyuculuq mahiyyətində ana qaynaqlıq edir və onun ana hökmlərini müəyyənləşdirir. Bu məzmunda Qur`anın İslamın ilk dövrlərindən etibarən necə bir qaynaq olması sualına cavab verməyə çalışacağıq. Çünki, Qur'anı doğru anlamağın birinci şərti ona yanaşma üslubuna bağlıdır. Başqa cür desək, Qur`anın müsəlmanların həyatındakı rolu onun nə cür kitab olması sualının cavabıdır. Mövzumuza görə bu bizə, fiqhi hökmlərə çatmağa, Qur`andakı əmrlərin sahib olduğu yeri tapmağa kömək edəcəkdir. Dinin iki təməl ünsüründən biri olan iman mövzularında Qur`anın tək və yetərli qaynaq olmasında ümumi bir qəbul var.[1] Hər nə qədər Qur`anın müxtəlif ayələri Qur`anın, dinin təməl qaynağı olduğuna işarə etsə də[2], ikinci təməl ünsür olan əməl haqqında eyni şeyi deyə bilmərik. Əməlin mühüm hissəsini təşkil edən ibadətlərin qaynağı birbaşa Qur`an olmaqla bərabər, bir çox təfsilat Qur`anda yer almır. Məsələn namazın ünsürləri olan qiyam, rüku və səcdə kimi rükunlar Qur`anda fərqli məzmunlarda qeyd edilsə də bunlar müəyyən bir ibadətin ünsürləri olaraq bildirilmir. Bu mövzudakı vəzifə yenə Qur`an tərəfindən həzrət Peyğəmbərə verilmişdir. Əməlin digər iki qismini meydana gətirən muamələt və uqubat (cəza hüququ) mövzularında da vəziyyət fərqli deyil. Ailə hüququ, ticarət hüququ, cinayət və cəzaları haqqında Qur`anda bir çox məlumat var. Lakin bu biliklər bir cəmiyyətin hüquq nizamını yaratmağa yetəcək qədər deyil. Qur`anın həzrət Peyğəmbərə ittibanı (tabe olma) əmr etməsi bu mövzuda da

* Bakı Dövlət Universitetinin müəllimi.

[1] Yavuz , Yusuf Şevki, "Dəlil", DİA, İstanbul, 1994.

[2] Qur`an , Maidə , 47-50.

vəzifənin ona verildiyini göstərir. Həzrət Peyğəmbər ibadətlərdən fərqli olaraq cavabını Qur`anda tapa bilmədikləri və özünə soruşmağa imkanı olmayan gündəlik yaşama hadisələri xüsusunda, öz görüşlərinə baxmalarını əshabına nəsihət etmişdir (məsələn, Muaz hədisi). Bu nəsihət həyat şərtlərinin bir gərəyi kimi götürülə bilər və bu məsələnin başqa bir həlli də görünmür.

Digər tərəfdən son ilahi kitab olan Qur`anın əhatə etdiyi mövzuların önəmli bir qismi nüzul dönəminə aid biliklər, keçmiş qövmlərdən qissələr[3] yer üzündəki canlılardan kosmosa qədər təbiət hadisələri ilə əlaqədar bəzi izahlardan[4] ibarətdir. Bütün bunların Qur`anın təməl hədəfi olan insanları hidayətə dəvət etməyə istiqamətlənmiş olduğu şübhəsizdir. Lakin elm və tarixlə əlaqəli məlumatların, Qur`anın miqdar olaraq önəmli bir bölümünü təşkil etməsi həqiqəti Qur`anın sırf bilik qaynağı olaraq görülməməsi üçün mühüm bir fakt sayıla bilər.

Burada Qur`anın, tarixin müəyyən dövründəki müəyyən bir cəmiyyəti dəyişdirməyə istiqamətlənmiş sözlü bir xitab olduğu ilə əlaqəli iddiaların[5] əhəmiyyəti, özünü daha da açıq şəkildə ortaya qoyur. Bununla əlaqəli olaraq mətnlə sözü bir-birindən ayırmağın əhəmiyyətini göstərən bir iqtibas vermək yerində olacaqdır:

Mətnlə söz arasındakı ən önəmli fərq, bu ikisinin quruluş formalarından qaynaqlanır. Mətni yazanda yazan yalnız olduğu halda, söz şəraitində muxatab dəqiq olaraq qarşıda durur. Bu etibarla, mətn, yazanın məqsədinin həyata keçib, keçmədiyini görmədiyi bir haldır. Amma söz şəraiti, mətnin tam tərsinə mütəkəllimə bu imkanı verir, yəni söz şəraiti canlı bir dialoq halıdır.[6]

Cəmiyyəti, hədəfinə istiqamətlənmiş olaraq döndərməyə istiqamətlənən bir xitabın yəni vəhyin, iki qapaq arasında toplanmış və hər an bir müraciət

[3] Bax. Şengül İdris, Kur'an kıssaları üzerine, Işık Yayınları , 1995.

[4] Bax. Yeniçeri,Cəlal, Uzay Ayetleri Tefsiri :İslam Açısından Kainat ve İmkanları, İstanbul, Erkam Yayınları, 1995.

[5] Fazlur Rahman, Allahın Elçisi ve Mesajı, trcm. Adil Çiftci, Ankara 1997, s.110; Bax. Özsoy Ömer, Kur`an ve Tarihsellik Yazıları, Ankara, 2004, s. 53-56. bax. Görgün Tahsın, İlahi Sözün Gücü, s. 7. Erdoğan Mehmet, Kur'an Vahyinin Nüzul Dönemi Olgusallığıyla İlişkisinin Fıkhi Yorumu, İslamiyat,C.7, S.1, s.63.

[6] Özsoy Ömer, Kur`an ve Tarihsellik Yazıları, s.57.

qaynağı olaraq görülən kitabdan fərqli olduğu aşkardır. Vəhy öz gəliş müddətində cəmiyyətlə birlikdə müvazinətli və uyğun hərəkət edirdi. Bu birlikdə hərəkət etmənin nəticəsi olaraq Qur`anda müəyyən mövzulara əsaslı bir sistem var, eyni mövzular fərqli yerlərdə yenidən işlənir və ya bir mövzu ilə əlaqəli biliklər Qur`anın fərqli yerlərində dağınıq olaraq yer alır və yerinə görə tarixi və ya elmi biliklərdən çoxlu bəhs edilir. Bu xüsusiyyətlər bir bilik qaynağının daşıması lazım olan xüsusiyyətlər deyil. Qur`an bir bilik qaynağının sahib olması lazım olan xüsusiyyətlərə sahib deyilsə, o zaman o, içində qanunların olduğu sırf bir bilik qaynağı deyil. Necə ki, Qur`an özünü bir hidayət rəhbəri olaraq tanıdır.[7] Elə isə Qur`anın necə bir qaynaq olduğu və ya daha spesifiq olaraq İslam hüququ üçün necə bir qaynaq olduğu sualı üzərində durmaq lazımdır. Bununla əlaqəli olaraq ilk deyiləcək şey, yuxarıda da bəhs edildiyi kimi, Qur`an təməl hədəf olaraq cəmiyyətin hüquqi quruluşunu dəyişdirməyi deyil, İslam cəmiyyətinin əsasını yaratmağı və bu cəmiyyətin bu qavrama içərisində varlığını davam etdirə bilməsi üçün imkanlar irəli sürməyi qarşısına məqsəd qoyar. O halda Qur`anın qaynaqlıq məsələsi üçün vəhyin ilk dönəmlərindən başlayaraq günümüzə qədər, Qur`anı diqqətə alaraq İslam hüququnun inkişafındakı bəzi nöqtələrə toxunmaq lazımdır.

Baxmayaraq ki, texnik olaraq İslam hüququndan danışa bilmək üçün hicri ikinci əsrin başlarını gözləməyimiz lazımsa da, vəhy dönəmi da daxil olmaq üzrə sahabənin və tabiunun fiqhi mövzularla məşğul olduğu və Qur`an və Sünnədə həllinə rastlamadıqları bəzi məsələlər üçün həll yolu tapmaları bir həqiqətdir. Sahabənin qarşılarına çıxan fiqhi mövzularda ilk olaraq Qur`ana müraciət etdiklərini həm məşhur Muaz hədisində, həm də həzrət Ömərin Əbu Musa əl-Əş`ariyə yazdığı məktubunda[8] görə bilərik. Hər iki misalda da qarşılaşılacaq məsələ ilə əlaqəli Qur`ana müraciət etdikdə axtarılan hökm tapılmayanda sıra ilə Sünnəyə və öz biliyinə görə hərəkət edilməsi tövsiyə edilmişdir.

Texnik mənada Fiqh üsulunun ortaya çıxdığı hicri ikinci əsrdən etibarən Qur`anın İslam Hüququnun qaynağı olduğu üzərində vurğular gedərək

---

[7] Qur`an, Bəqərə, 2.

[8] Şirazi, Əbu İshaq Cəmaləddin İbrahim b. Əli b. Yusuf, Tabaqatul-Fuqaha, thq., İhsan Abbas 2.nşr. Beyrut: Darur-Raidil-Arabi, 1981.s.39-40.

artmışdır. Xüsusilə rəyin yayılması və yerli təcrübələrin fərqliləşməsi Şafinin Qur`an və Sünnəyə təkrar diqqət çəkməsini vacib etmişdir. Malikin Muvattanı təlif etməsinin səbəbi də buna bağlı olaraq dəyərləndirilir. Hər nə qədər Muvatta bir hüquq mətni olaraq kifayət etməsə də bu, nəss çərçivəsindən uzaqlaşmağın qarşısını almağı göstərən bir həqiqətdir. Şafinin Qur`an vurğusu[9] da bu prosesin bir davamı olaraq görülə bilər. Bu vurğunun uc nöqtəsi olaraq Zahiri məktəb kimi Qur`anın ləfzi mənasına bağlılıqların ortaya çıxmasıyla bərabər Şafinin sistemləşdirdiyi qaynaq nəzəriyyəsi, təqib edən dövrlərdə təsirini göstərməyə davam etdi.[10] Daha sonrakı dövrlərdə Qur`anın doğru başa düşülməsi və ya ümumi olaraq nəslərdən istinbat üçün səhih ölçülər qoymaq daha çox önə çıxmağa başlamışdır. Şatibinin Məqasid nəzəriyyəsi buna misal ola bilər. Adı keçən nəzəriyyə Qur`anın ləfzi mənasına bağlı qalmamağı göstərən bir giriş olaraq dəyərləndirilə bilər. Şatibinin hökmləri zəruri, haci və təhsini olaraq üç sinifə ayırması[11] və Qur`anın əmrlərinin bir çoxunun ümumi hökmlər olduğuna diqqət çəkməsi bunun işarəti olaraq dəyərləndirilə bilər.[12]

Şatibinin bu təşəbbüsü günümüzdəki tarixilik görüşünün referans qaynağı olaraq göstərilir. Fazlur Rahmanın rəhbərlik etdiyi bu görüşə görə Qur`an, tarixin müəyyən dövründəki müəyyən bir cəmiyyətə xitab olması baxımından tarixi bir kitabdır və fiqhi hökmlərinin bir çoxu da spesifiq hadisələri həll etmək mahiyyətindədir. Buna görə Qur`anı doğru başa düşmənin yolu danışılan spesifiq hökmlərdən ümumi prinsiplərə çatmaq və bu prinsiplərə əsaslanaraq günümüzdəki məsələləri həll etməkdir.[13] Bənzər bir görüş Faruqidə də görülür. Faruqiyə görə Qur`an üst dəyərlər və alt dəyərlər olmaq üzrə ikili bir dəyər tipolojisinə sahibdir. Buna görə, Qur`anı İslam hüququ və düşüncəsinin universal qaynağı halına gətirmək üçün üst

---

[9] Şafiinin ər-Risalə adlı əsərinin başından etibarən Qur`an üzərinə vurğuları diqqət çəkir. Şafii bəhs etdiyi mövzulara Qur`andan ayələri dəlil olaraq göstərir və Qur`anın hidayət rəhbəri olduğunu vurgulayır. Bax. Şafii,Məhəmməd b. İdris, ər-Risalə, Beyrut, t.y., s.9, 20, 27, vs.

[10] Bax.Taştan Osman ,"İslam Hukukunda Kur`an" 1. Kur`an sempozyumu (1994), Bilgi Vakfı Yayınları, Ankara.

[11] Şatibi, Əbu İshaq, əl-Muvafaqat fi usulil-ehkam, 1970, II, 4

[12] Şatibi, əl-Muvafaqat, III, 242.

[13] Fazlur Rahman, Islam and Modernity, Chicago, London, 1982, s.20.

dəyərləri alt dəyərlərin və ya spesifiq hallərin önünə qoymaq lazımdır.[14] Qur`anın sadəcə ləfzi mənasına bağlı qalmanın onu doğru başa düşmədə problem təşkil edəcəyini açıq bir şəkildə ifadə edən həm məqasid nəzəriyyəsi, həm tarixilik görüşü, həm də dəyərlər sistemi Qur`anın hökmlərinin əksəriyyətinin spesifiq hadisələri həll etmə mahiyyətində olduğu iddiasını daşıyır. Yenə eyni şəkildə bu təşəbbüslər Qur`an hökmlərinin arxasında ümumi prinsiplərin olduğu görüşünü bölüşür və Qur`anın günümüzdə keçərliliyini davam etdirməsi üçün bu prinsiplərin əsas alınmasının zəruriliyini iddia edirlər. Hal belədirsə, Qur`anın ləfz və məna bütünlüyünün sərhədləri üzərində durmaq lazımdır.

**Nəzm və məna**

Əbdüləziz Buxari Qur`anın tərifini verərkən nəzm-məna əlaqəsi üzərində müfəssəl olaraq durur (Burada nəzm, xüsusi mənada kəlimə və ya ləfz ümumi olaraq da dilin qarşılığı olaraq istifadə edilir). Nəzm-məna əlaqəsi Qur`anın ləfzinin yoxsa mənasının əsas alınmasının vacibliyi nöqtəsində əhəmiyyətini ortaya qoyur. Bu mənada yuxarıda danışdığımız, Qur`anın təkrar müsəlmanların həyatı üzərində təsirini artırmaq və hər çağda Qur`anın hidayət rəhbəri olmasını təmin etmə görüşləri üçün tutarlı nəzm-məna əlaqəsi yaratmaq bu yolda edilən çalışmalar üçün sağlam bir zəmin təşkil edə bilər.

Əbdüləziz Buxari bu mövzunu Kəşful-əsrarın əsl mətni olan Üsulul-Pəzdəvidəki Qur`anın tərifi çərçivəsində ələ alır. Adı çəkilən tərif belədir: Kitab, Rəsulullaha endirilən, səhifələrdə yazılı olan və Rəsulallahdan mütəvatir olaraq nəql olunan Qur`andır. Bu tərifdəki, mövzumuza görə önəmli olan bir ünsür üzərində duracağıq. Bu ünsür endirilən kəliməsidir. Əbdüləziz Buxari Pəzdəvinin bu kəliməni istifadə etməyindəki məqsədinin mətluvv vəhyə işarət etmək olduğunu ifadə edir. Beləliklə qüdsi hədis olaraq bilinən, sadəcə mənası həzrət Peyğəmbərə nazil olan vəhy Qur`an xaric edilməklə birlikdə Qur`anda yer alan vəhyin yəni Qur`anın hamısının məna

[14] əl-Faruqi, İsmail Raci, "Towards A New Methodology For Qur`anic Exegesis" Islamic Studies, vol. I (1962), s.46-49; Taştan Osman, "İslam Hüququnda Qur`an" 1. Kur`an Sempozyumu (1994), Bilgi Vakfı Yayınları, Ankara, s.323

və ləfz bütünlüyündən olduğu ortaya qoyulur.[15] Sonda nəzmdən müstəqil bir məna, Qur`an deyil.[16](Bu mənada Əbu Hənifənin, hər kəsin namazda Qur`an ayələrini öz dilində oxumasına icazə verməsi Qur`anın mətn məna təsnifi ilə əlaqəli bir yaxınlaşmanın nəticəsi deyil, bir rüxsət olaraq dəyərləndirilməlidir.[17])

Nəzmlə məna arasındakı əlaqənin üçlü təsnifindən bəhs etmək mümkündür.

1. Nəzmin öz başına dəlalət etdiyi mənaların təkliyi və çoxluğu
2. Nəzmin bir tərkib içinə girməsindən sonra, mənasının eşidənə görə açıq və ya qapalı olması
3. Danışanın nəzmi istifadəsi[18]

Bu təsnif Qur`anın ləfz-məna münasibəti baxımından əhəmiyyətlidir. Çünki, həm Qur`an mətninin əsas alınmasının lazımlığı yəni ləfzi mənasının tarixüstü dəyərə sahib olduğunu dəstəkləyən ənənəçi görüş, həm də istər dəyərlər tipologiyası istərsə də tarixilik görüşünü mənimsəyən yəni Qur`andakı ümumi prinsiplərin əsl olduğunu qəbul edən anlayışın hərəkət nöqtəsi nəzm-məna və ya ləfz-məna əlaqəsidir.

Ənənəçi görüşün Qur`an mətninin ləfzi mənasının hər dövrdə keçərli olduğunu irəli sürməsi[19] Qur`anın ləfz və mənasının bütünlüyünün bir nəticəsi olaraq dəyərləndirilə bilər. Yuxarıda işarət edildiyi kimi Əbdüləziz Buxarinin də ifadə etdiyi kimi Qur`an nəzm və məna bütünündən ibarətdir. Bu görüş ləfzi mənanın kənarda buraxılmasının mümkün olmadığının yetərli dəlilidir. Ancaq yuxarıda qeyd etdiyimiz nəzmin üçlü təsnifi Qur`an mətninin mənasının təsbiti ilə əlaqəli daha fərqli bir görüşü imkan verir. Təsnifdə eşidənin vəziyyətinə görə mənanın açıq və ya qapalı ola biləcəyinin göstərilməsi mətni başa düşmə səyindəki müxatabın vəziyyətinin mətn vasitəsilə gerçəkləşən çatdırılmadakı əhəmiyyətini göstərir. Bundan əlavə yenə Əbdüləziz Buxarinin mənanın çatdırılmasında istimalın müəyyənləş-

[15] Buxari, Ələddin Əbdüləziz b. Əhməd, *Kəşful-Əsrar alə Usuli Bəzdəvi,* Beyrut, 1997, I, 67-70.
[16] Buxari, Kəşful-Əsrar, I, 89.
[17] Buxari, Kəşful-Əsrar, I, 87
[18] Buxari, Kəşful-Əsrar, I, 81
[19] Əbu Zeyd, Nasr Hamid, İlahi Hitabın Tabiatı, trc. Mehmet Emin Maşalı, Ankara, 2001, s.37.

diriciliyinə diqqət çəkməsi[20] də mətnin başa düşülməsində fərqli görüşlərə imkan verir.

Digər tərəfdən yenə nəzm-məna arasındakı bağlılıq Qur`an mətni içərisindən üst dəyərlərin və ya ümumi prinsiplərin təsbitində də, mətnə bağlı qalınması yönündən əhəmiyyətli funksiyaya sahibdir. Nəzmin mənadan ayrılmazlığı ayələrin keyfi şərhlərinə mane olmaqla birlikdə üst dəyərlər və ya ümumi prinsiplərin Qur`an mətninə uyğunluğuna da zəmin hazırlayır.

## SUMMARY

As known very important knowledge source in Islam is the Holy Koran. Especially between source of Islamic Law considered importance to Koran. In spite of Koran include of sceintific and hystorical knowledges its main object is religion. Then Koran is the legislative source of Islam and determined its rules.

## РЕЗЮМЕ

Известно, что основа знаний – это Святой Коран. Несмотря на то, что Коран содержит в себе научные и исторические знания, его основной объект – это религия. Это означает, что Коран – основа законадательства Ислама, и определяет его правила.

[20] Buxari, Kəşful-Əsrar, I, 84

## ƏDƏBİYYAT

Buxari, Ələddin Əbdüləziz b. Əhməd, *Kəşful-Əsrar alə Usuli Bəzdəvi,* Beyrut, 1997.

Faruqi, İsmail Raci, "**Towards A New Methodology For Qur`anic Exegesis**" Islamic Studies, vol. I (1962).

Fazlur Rahman, *Allahın Elçisi və Mesajı*, trcm. Adil Çiftci, Ankara 1997.

Fazlur Rahman, *Islam and Modernity*, Chicago, London, 1982.

Taştan Osman, "**İslam Hukukunda Kur`an**" 1.Kur`an Sempozyumu (1994), Bilgi Vakfı Yayınları, Ankara.

Yavuz , Yusuf Şevki, "**Delil**", DİA, İstanbul, 1994.

Yeniçeri, Celal, *Uzay Ayetleri Tefsiri :İslam Açısından Kainat ve İmkanları*, İstanbul, Erkam Yayınları, 1995.

Özsoy Ömer, *Kur`an ve Tarihsellik Yazıları*, Ankara, 2004.

Şafii, Muhammed b. İdris, *ər-Risalə*, Beyrut, t.y.

Şatibi, Əbu İshaq, *əl-Muvafaqat fi usulil-Ehkam*, 1970.

Şirazi, Əbu İshaq Cəmaləddin İbrahim b. Əli b. Yusuf, *Tabaqatul-Fuqaha*, thq., İhsan Abbas 2.nşr. Beyrut: Darur-Raidil-Arabi, 1981.

Şengül İdris, *Kur`an Kıssaları Üzerine*, Işık Yayınları , 1995.

Görgün Tahsın, *İlahi Sözün Gücü*, s. 7.

Əbu Zeyd, Nasr Hamid, *İlahi Hitabın Tabiatı*, trc. Mehmet Emin Maşalı, Ankara, 2001.

Erdoğan Mehmet, Kur'an Vahyinin Nüzul Dönemi Olgusallığıyla İlişkisinin Fıkhi Yorumu, İslamiyat,C.7, S.1, s.63.